

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 107 (21.517)

11 iyun 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhərində yeni yaşayış binası istifadəyə verilmişdir





Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında əldə olunan tərəqqi Milli Qurtuluş Gününün bəhrələridir. Ümummilli liderin siyasi xəttinin davam etdirilməsi nəticəsində muxtar respublikada insanların rahat yaşayışına xidmət edən müasir infrastrukturun yaradılması istiqamətində tədbirlər görülmüş, yeni yaşayış binaları tikilərək istifadəyə verilmişdir.

İyunun 10-da – Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan şəhərində yeni yaşayış binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək demişdir ki, aparılan kompleks quruculuq işləri Naxçıvan şəhərinin simasını tamamilə dəyişmişdir. Yaşayış binalarının tikintisi və yenidən qurulması, müasir yaşayış komplekslərinin salınması da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Ötən il Naxçıvan şəhərində 4 yaşayış binası tikilərək, 9 yaşayış binası isə yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Sakinlər adından danışan Sadıq Sadıqov demişdir: Hər bir ailə üçün mənzil təminatı vacib məsələdir. Ona görə də muxtar respublikada bu məsələ daim diqqətdə saxlanılır. Əvvəllər lazımi kommunal-məişət şəraiti olmayan binalarda yaşayırdıq. Lakin bu gün hərtərəfli şəraiti olan müasir mənzillər bizə təqdim olunur. Sakinlər bütün bunları ölkəmizdə insanların rahat yaşayışına göstərilən qayğı kimi dəyərləndirirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün yeni mənzillə təmin olunanların həyatında əlamətdar hadisədir. Çünki hər bir insanın həyatında ən vacib məsələlərdən biri də onun mənzil sahibi olmasıdır. Mənzil insanın rahat yaşayışını, sağlamlığını və ailə xoşbəxtliyini təmin edən əsas amildir.

Ali Məclisin Sədri yeni mənzillə təmin olunanları təbrik etmiş, onlara sağlam və firavan həyat arzulayaraq demişdir: Bu tədbirlər ölkəmizdə həyata keçirilən dövlət-xalq siyasətinin tərkib hissəsidir. Hər bir ölkənin inkişafı üçün, ilk növbədə, ictimai-siyasi sabitlik və iqtisadi inkişaf olmalıdır. 1993-cü il iyunun 15-də ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda ictimai-siyasi sabitliyin və iqtisadi inkişafın əsası qoyulmuşdur. Bundan sonra ölkəmiz hərtərəfli inkişaf yoluna qədəm qoymuş, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuşdur. Əgər Milli Qurtuluş Günü olmasaydı, ölkəmizin bugünkü inkişafını təmin etmək də mümkün olmazdı. Bu gün ulu öndərin yolunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə inkişaf proqramları qəbul olunaraq həyata keçirilir, yeni xəstəxanalar, məktəb binaları tikilir, yollar çəkilir, əhalinin rifahı yaxşılaşdırılır. Yeni yaşayış binalarının tikilməsi və insanların mənzil şəraitinin yaxşılaşdırılması da ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

Ali Məclisin Sədri demişdir: Bu gün mənzillə təmin olunanlar əvvəllər lazımi şəraiti olmayan binalarda yaşayırdılar. Ötən əsrin əvvəllərində tikilən binalar bugünkü tələblərə cavab vermirdi. Ona görə də həmin binalar söküldü və Naxçıvan şəhərində müvafiq ərazi seçilərək yeni yaşayış binası tikildi. Sakinlərin yeni mənzillərlə təmin olunması dövlətimizin vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir. Bu tədbirlərin həyata keçirilməsi üçün ölkədə, ilk növbədə, sabitlik və iqtisadi inkişaf olmalıdır. Ümummilli liderimiz Heydər Əliyev bu amili nəzərə alaraq deyirdi ki, ***hər bir ölkənin inkişafı üçün, birinci növbədə ictimai-siyasi sabitlik təmin olunmalı və bundan sonra iqtisadi islahatlar həyata keçirilməlidir.***

Ali Məclisin Sədri demişdir: Bu gün yeni mənzillərin təqdim olunması ilə 28 ailənin rahat yaşayışı təmin olundu. Rahat yaşayışın təmin olunması isə insanların işlədiyi yerlərdə daha səylə çalışmasına, ölkəmizin inkişafına töhfələr verməsinə imkan verəcəkdir. Ölkəmizin inkişaf etməsi isə bundan sonra da quruculuq tədbirlərinin davam etdirilməsinə, yaşayış məntəqələrinin daha da abadlaşmasına, yeni iş yerlərinin açılmasına və insanların rahat yaşayışına xidmət edəcəkdir. Ona görə də yeni mənzillə təmin olunanlar tikilənləri qorumalı, yaradılan şəraitdən səmərəli istifadə etməlidirlər.

Ali Məclisin Sədri qarşıdan gələn Milli Qurtuluş Günü münasibətilə sakinləri təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini təqdim etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 8 mərtəbəli binada 21-i ikiotaqlı və 7-si üçotaqlı olmaqla, 28 mənzil vardır. Binadakı mənzillərin sahəsi ikiotaqlılarda 69, üçotaqlılarda isə 97 kvadratmetrdir. Mənzillərdən 1-i şəhid ailəsinə, 26-sı isə Heydər Əliyev prospektində sökülmüş iki binanın sakinlərinə verilmişdir. Bütün mənzillər təmir olunmuş və fərdi istilik sistemi quraşdırılmışdır. Binanın zirzəmi qatında isə hər birinin sahəsi 170 kvadratmetr olan 2 kommersiya obyekti və 1 bərbərxana yerləşir.

Ali Məclisin Sədri şəhid Orxan Quliyevin ailəsinə verilən mənzilə baxmış, şəhidin ailə üzvləri ilə görüşmüş və onların qayğıları ilə maraqlanmışdır.

Bina ilə tanışlıqdan sonra sakinlərlə söhbət edən Ali Məclisin Sədri ərazinin Naxçıvan şəhərinin abad guşələrindən birinə çevrildiyini bildirmiş, onları bir daha təbrik etmişdir.

Binanın həyətində də geniş abadlıq işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Milli Qurtuluş Gününə həsr olunmuş tədbirlər keçirilib



*İyunun 10-da Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Böyük Qayıdışdan Milli Qurtuluşa" mövzusunda elmi-praktik konfrans keçirilib.*

Konfransda muzeyin direktoru Ramil Orucəliyevin "Qayıdışdan Qurtuluşa", Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Emin Məmmədovun "Xilaskarlıq missiyasının Heydər Əliyev nümunəsi", Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimovanın "Heydər Əliyev dövlətçilik xətti günümüzdə" mövzularında məruzələri dinlənilib.

Məruzələrdə qeyd olunub ki, inkişaf etmiş müstəqil Azərbaycan Böyük Qayıdışın və Milli Qurtuluşun bəhrəsidir. Bu gün Azərbaycan Respublikası görkəmli dövlət xadimi, Milli Qurtuluşun banisi Heydər Əliyevin müstəqillik və milli dövlətçilik ideyalarını dünyada gedən proseslərə, ölkənin reallıqlarına uyğun şəkildə yaradıcılıqla inkişaf etdirərək böyük sabahlara doğru qətiyyətlə addımlayır. Milli Qurtuluşdan başlanan yollar böyüyür, genişlənir və sürətlə inkişaf edir. Milli Qurtuluş milli dirçəlişin, Azərbaycançılıq məfkurəsinin möhkəm və etibarlı bünövrəsi kimi böyük gələcəyə yol açır.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş, məqsədyönlü, ardıcıl fəaliyyəti ilə özünün yüksək inkişaf səviyyəsinə görə ərazi etibarilə kiçik Azərbaycan dünyanın böyük dövlətlərinin cərgəsinə çıxarılıb. Transqafqaz əhəmiyyətli bütün böyük layihələrin, demək olar ki, hamısının əsas müəllifi, baş memarı Azərbaycandır. Dövlət başçısı səviyyəsində beynəlxalq miqyasda həyata keçirilən və Azərbaycanda cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatların, kompleks proqramların nəticəsidir ki, müstəqil Azərbaycan dövlətinin tərəfdarları artıb, beynəlxalq nüfuzu xeyli yüksəlib. Geniş mənada, bütün yönləri ilə inkişaf etmiş Azərbaycan dövləti Milli Qurtuluş Gününün bəhrəsidir. Azərbaycanın tərkibində sürətli inkişaf yolu keçmiş Naxçıvan Muxtar Respublikası Böyük Qayıdışın vətəni, Böyük Qurtuluşun etibarlı dayağıdır. Böyük Qurtuluşdan Azərbaycan Respublikasının böyük gələcəyinə güneş doğur.

Məruzələrdən sonra elmi-praktik konfransın iştirakçıları "Azərbaycan qədər əbədi" filminə baxıblar, Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olublar.

*Ulu öndər Heydər Əliyev hələ Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə əsl vətənpərvərliklə, liderlik qabiliyyəti ilə dövlət müstəqilliyinin bərpası istiqamətində tarixi qərarlar qəbul edib. 1993-cü ilin iyununda – son dərəcə mürəkkəb bir dövrdə xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyev ictimai-siyasi sabitliyi təmin etməklə, vətəndaş qarşıdurmasını aradan qaldırmaqla, respublikanı parçalanmaq təhlükəsindən hifz etməklə, sözün əsl mənasında, Milli Qurtuluşu təmin edib.*

Bu fikirlər Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında Milli Qurtuluş Gününə həsr olunmuş tədbirdə səsləndirilib.

Təşkilatın sədri Qürbət Rzayev vurğulayıb ki, ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ölkəmizin çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil olub. Həmin gün Azərbaycan xalqının ölüm-dirim mübarizəsində məhv olmaqdan qurtuluş günüdür.

"Ulu öndərin Azərbaycanın hərtərəfli inkişafına yönəlmiş siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir", – deyən təşkilat sədri bildirib ki, Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında böyük və şərəfli yol keçməkdədir. Həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirlərindən Ordubad rayonuna da böyük pay düşüb. Ulu öndərin "Azərbaycanın incisi" adlandırdığı Ordubad müasir tikililəri, park və küçələri, rahat yolları ilə bura yolu düşən hər kəsi heyran edir. Eyni zamanda rayonun kəndlərində yaradılmış müasir infrastruktur əhalinin rahatlığını təmin edib.

Tədbirdə Yeni Azərbaycan Partiyası fəallarından Könül İsmayılova, Elvin Məmmədov, Uğur İsgəndərov çıxış edərək bildiriblər ki, məhz bu qayıdış sayəsində Azərbaycan üçün çoxdan hazırlanan məkrli planların qarşısına möhkəm sipər çəkilib, siyasi varlığımıza doğru uzanan xain əllər kəsilib, dövlətimizin müstəqilliyi əbədi, dönməz, sarsılmaz olub.

Sonda bir qrup gəncə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim edilib.

**Xəbərlər şöbəsi**

# Milli Qurtuluş Günü ölkəmizin tarixinə qızıl hərflərlə yazılıb

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində Heydər Əliyev lektoriyasının "Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa" mövzusunda növbəti məşğələsi keçirilib. Məşğələni giriş sözü ilə gənclər və idman nazirinin müavini Məcid Seyidov açaraq bildirib ki, Milli Qurtuluş Günü xalqımızın həyatında ən mühüm mərhələnin başlanğıcıdır. Məhz həmin gün ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıtması ilə ölkəmiz parçalanmaqdan, müstəqilliyini itirmək təhlükəsindən xilas olub.*



Məşğələdə "Naxçıvan" Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru İbrahim Kazımbəyli "Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa" mövzusunda məruzə edib. Qeyd olunub ki, hər bir xalqın tarixində milli qurtuluş və oyanış məqamları vardır. 1993-cü ilin 15 iyunu da belə tarixdir. Həmin dövrdə Azərbaycan xalqı təhlükə qarşısında olan dövlətini xilas etmək üçün üzünü Naxçıvana tutdu, mənalı həyatını bütünlüklə xalqının və dövlətinin inkişafına həsr edən ümummilli lider Heydər Əliyevə müraciət etdi. Xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev dağılmaq, parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qalan ölkəmizi təlatümlər burulğanından qurtardı. Müdrik rəhbər öz uzaqgörən siyasəti ilə ölkənin gələcək inkişaf strategiyasını müəyyənləşdirdi və onun həyata keçirilməsi üçün mühüm addımlar atdı.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizin inkişafı və qüdrətlənməsi naminə gördüyü işlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Ötən dövrdə ictimai-siyasi, iqtisadi və mədəni həyatımızın bütün sahələrində əldə edilmiş dirçəliş məhz Milli Qurtuluş Gününün bəhrəsidir. Elə bu səbəbdən də hər bir Azərbaycan vətəndaşı iyunun 15-ni – ümummilli lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışını – Milli Qurtuluş Gününü ümumxalq bayramı kimi qeyd edir.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müdrik, inamlı, son dərəcə cəsarətli, eyni zamanda tarazlı, xalqının milli maraqlarına xidmət edən daxili və xarici siyasəti nəticəsində ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir, əhalinin sosial rifahı gündən-günə yaxşılaşır, etibarlı tərəfdaş ölkə kimi respublikamızın nüfuzu dünyada durmadan artır.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında, ulu öndər Heydər Əliyevin quruculuq xəttinin uğurla davam etdirilməsi nəticəsində inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin edib, iqtisadiyyatın dinamik inkişafına təkan verib və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Bu gün muxtar respublikada elə bir sahə yoxdur ki, diqqətdən kənarda qalsın, inkişafa nail olunmasın. Bütün bunlar isə ulu öndər Heydər Əliyevin yoluna sədaqətin bəhrəsi, Milli Qurtuluşdan başlanan inkişafın davamıdır.

Tədbirdə çıxış edənlər ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışının milli tariximizdəki əhəmiyyətindən söz açıb, ölkəmizin bugünkü inkişafının təməlində məhz Milli Qurtuluş Gününün dayandığını bildiriblər.



*Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında da 15 İyun – Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib.*

Tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov açaraq bildirib ki, Azərbaycanın taleyinin həll olunduğu ötən əsrin 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtması ölkəmizin tarixində dönüş nöqtəsi, qurtuluş anı olub. Dövlət müstəqilliyimizin rəsmən 1991-ci ildə bəyan edilməsinə baxmayaraq, ermənilərin elan olunmamış hərbi təcavüzünə məruz qalan ölkəmizin daxilində vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyillərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması ilə nəticələnə bilərdi. İki ilə yaxın müstəqillik tarixində naşı rəhbərliyin səriştəsiz idarəçiliyi nəticəsində xaos və anarxiya, hakimiyyət üstündə çəkişmələr davam edirdi. Bütün bunlar yenicə müstəqil olmuş bir ölkəni addım-addım məhvə və süquta sürükləyirdi.

Qeyd olunub ki, məhz belə bir dövrdə xalqının çağırışına, Vətəninin ağır vəziyyətinə və müstəqil dövlətçiliyin təhlükə altında olmasına biganə qala bilməyən ulu öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı və Azərbaycan müstəqilliyinin zəfər yürüşünün tarixlərə şahid olacaq salnaməsini yazmağa başladı. Ötən dövrdə Azərbaycan bu yolla inamla gedərək inkişaf edir, yeni-yeni uğurlara imza atır.

Vurğulanıb ki, sərhəd bölgəsi Sədərək rayonu daim ulu öndərin qayğısı əhatəsində olub. Bu ərazidə yeni rayonun yaradılması məhz ümummilli liderin uzaqgörən siyasətinin ifadəsidir. Ötən dövr ərzində Sədərək müasir Azərbaycan rayonuna çevrilib. Görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi quruculuq strategiyasını uğurla həyata keçirən ölkə başçısı cənab İlham Əliyevin yenidən qurulmuş Heydərabad qəsəbəsində olması, sakinlərlə görüşməsi sədərəklilərin qurub-yaratmaq əzmini xeyli yüksəldib. Bu, ulu öndərin yolunun davamı deməkdir.

Tədbirdə çıxış edən partiya fəalları ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən danışıblar.

**Xəbərlər şöbəsi**

# Azərbaycan tarixi beynəlxalq konfransda müzakirə olunub

Səs İnformasiya Agentliyinin məlumatına görə, Rusiya Federasiyası Silahlı Qüvvələrinin Moskva şəhərindəki Mərkəzi Muzeyində beynəlxalq konfrans keçirilib. Tədbirdə iştirak edən Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov "Azərbaycanda Sovet hakimiyyətinin yaradılması" adlı məruzə edib. Pərvin Gözəlov məruzəsində Azərbaycan SSR-də müxtəlif illərdə qəbul edilmiş bayraqlar və gerblər, eləcə də 1941-1945-ci illər müharibəsində azərbaycanlılardan ibarət atıcı diviziyaların göstərdikləri qəhrəmanlıqlar haqqında danışmış, Azərbaycan neftinin müharibədə həlledici rol oynadığını vurğulamışdır. Məruzəçi ötən əsrin 60-cı illərində Azərbaycanda yaranan iqtisadi böhrandan və ulu öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra həyata keçirilən tədbirlərdən bəhs etmişdir.



Maarifləndirici tədbirlərdən biri də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilib. Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb Tarixi Muzeyində təşkil olunan "Müharibə və silah. Yeni tədqiqatlar və materiallar" beynəlxalq elmi-praktik konfrans çərçivəsində Naxçıvan xanlığının XVIII-XIX əsr bayraqlarına həsr edilmiş təqdimat olmuşdur. Tədbirdə Naxçıvan xanlığının dövlət və iki rəngli döyüş bayraqları barədə geniş məlumat verilib, bayraqların üzərindəki ərəb dilli yazılar və rəmzlərin mənaları təhlil edilib. Bildirilib ki, Naxçıvan xanlığının dövlət bayrağının üzərindəki səkkizguşəli ulduz və aypara kompozisiyası, xanlığın üçüncü bayrağının qırmızı və yaşıl rəngli olması, üzərində səkkizguşəli ulduz rəmzinin təsviri sübut edir ki, Azərbaycan Respublikasının dövlət bayrağındakı rəmzlər və rənglər, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətindən də qabaq Naxçıvan xanlığının bayraqlarında milli rəmz kimi istifadə edilib. Bayrağın üzərində əks olunmuş ulduz Möminə xatın türbəsinin üzərindəki ulduzların üslubunda tərtib olunub.

Qeyd edək ki, Naxçıvan xanlığının sözügedən bayraqları Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb Tarixi Muzeyinin bayraq fondunda saxlanılır.

# Sədərək rayonunda sığorta fəaliyyəti genişləndirilir



*Sədərək Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr barədə tədbir keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov son illərdə rayonda sığorta sahəsində görülmüş işlər barədə məlumat verib.*

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov müasir dövrdə muxtar respublikamızın hərtərəfli inkişafında sığorta fəaliyyətinin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, sığorta iqtisadi inkişafın nəticəsi olmaqla bərabər, eyni zamanda onu şərtləndirən əsas amillərdən biridir. Bu baxımdan muxtar respublikamızda iqtisadi fəallığın yüksəldilməsi ilə bərabər, sığorta münasibətlərinin də inkişafına geniş zəmin yaranıb. Evdə, işdə və yolda insanlara maddi zərərlər vuran müxtəlif gözlənilməz hadisələr baş verdikdə sığorta ödənişləri dəymiş maddi zərərlərin əvəzini ödəməyə imkan verir.

Baş direktor son dövrlərdə baş vermiş sığorta hadisələrindən konkret misallar gətirməklə vaxtında sığorta müqaviləsi bağlamağın üstünlüklərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirilib ki, ötən müddət ərzində Sədərək rayonunda hüquqi və fiziki şəxslərin sığortaya cəlb olunması istiqamətində xeyli iş görülüb, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayında artım olub. Belə ki, rayonda ötən ilin 5 ayı ilə müqayisədə cari ilin ilk beş ayında sığorta haqlarının toplanması 14,2 faiz, sığorta müqavilələrinin sayı isə 174 ədəd artıb. Rayonda daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə mövcud vəziyyət təhlil olunaraq vurğulanıb ki, görülmüş işlərlə bərabər, bəzi icbari sığorta növləri üzrə müqavilələrin bağlanılmasında müəyyən çatışmazlıqlar da vardır. Belə ki, Sədərək rayonunda hələ də daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Ölkəmizdə qüvvədə olan qanuna əsasən, icbari qaydada sığortalanan hər bir sığorta obyekti sığortaya cəlb olunmalıdır.

Tədbirdə kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunulub. Diqqətə çatdırılıb ki, kənd təsərrüfatı sığortası ilə yanaşı, ev əmlakının sığortası, fərdi qəza sığortası və digər könüllü sığorta növlərinə marağın artması, son nəticədə, insanların rifahının yüksəldilməsinə xidmət edir.

Tədbirdə Sədərək Rayon Polis Şöbəsinin Dövlət yol polisi bölməsinin rəisi İlkin Məmmədov, Sədərək Rayon Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Zamiq Məmmədov, Qaraağac kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Şərafəddin Şükürov icbari sığortalar sahəsində görülmüş işlərin vəziyyəti barədə məlumat veriblər.

Tədbirə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov yekun vurub.

**Əli CABBAROV**

# Çin Xalq Respublikasının "Huawei" şirkətində istehsalat təcrübəsi keçəcək tələbələrlə görüş

Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin dəstəyi ilə Çin Xalq Respublikasının "Huawei" şirkəti tərəfindən "Naxçıvan" Universitetində Azərbaycanda ilk dəfə olaraq "Gələcəyin İKT sahəsindəki toxumları" adlı proqram-layihə həyata keçirilib. Həmin proqram-layihə çərçivəsində Naxçıvandan olan 6 tələbə Çinin "Huawei" şirkətində istehsalat təcrübəsi keçəcək.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində müsabiqədən keçib Çinə istehsalat təcrübəsinə göndəriləcək tələbələrlə görüş olub.

Görüşdə Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin bir sıra ixtisasları Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyinə verilib. Müvafiq ixtisaslarda təhsil alan tələbələrlə görüşlər keçirilir, onların ixtisaslarına daha dərindən yiyələnmələri üçün köməklik göstərilir.

Tərəfdaş şirkət barədə məlumat verən Rövşən Məmmədov qeyd edib ki, nazirlik dünyanın informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı şirkətlərdən olan Çin Xalq Respublikasının "Huawei" şirkəti ilə uzun illərdir, uğurlu əməkdaşlıq edir. Qeyd olunub ki, ötən ilin sentyabr ayında "Naxçıvan" Universitetində İnformasiya Texnologiyaları Mərkəzi yaradılıb. Mərkəzdə "Huawei" şirkətinin istehsalı olan avadanlıqlar, yeni nəsil çeviricilər və şəbəkə avadanlıqları qurulub.

Vurğulanıb ki, "Huawei" şirkətinin təşəbbüsü, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin dəstəyi ilə Azərbaycanda ilk dəfə olaraq treninq proqramı həyata keçirilib və bu proqrama Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universiteti qatılıb. Bildirilib ki, ikihəftəlik proqram çərçivəsində tələbələr əvvəlcə Pekinə gedərək Çin mədəniyyəti ilə tanış olacaqlar. Daha sonra onlara "Huawei" şirkətinin Şenjen şəhərində yerləşən ofisində müasir texnologiyaların öyrənilməsi və istehsal üzrə təlimlər keçiriləcək.

Sonda tələbələrə uğurlar arzulanıb və onlara hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

İcmal

# Naxçıvan ötən ay beynəlxalq tədbirlərə ev sahibliyi edib, sosial, iqtisadi və mədəni həyatda yeniliklərə imza atıb

***Bugünkü müstəqil Azərbaycan Respublikası, sürətlə inkişaf edən, çiçəklənən Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin şah əsəridir. Ümummilli lider bütün həyatı boyunca vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. Ona görə də qədirbilən naxçıvanlılar əvəzolunmaz liderin ölkəmiz naminə gördüyü bütün işləri heç vaxt unutmur, Onun dünyaya göz açdığı günü bayram əhval-ruhiyyəsində qeyd edirlər.***



Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib.

Ali Məclisin Sədri və tədbir iştirakçıları Heydər Əliyev Muzeyinə gələrək ümummilli liderimizin həyat yolunu, çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Muzeylə tanışlıqdan sonra Ali Məclisin Sədri ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik edərək deyib: ***"Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətinin memarı, qurucusu, xilaskarı və əbədiyaşar lideridir. O insanlar tarixdə əbədi yaşayır ki, onun həyat və fəaliyyəti xalqına və dövlətinə həsr olunsun. Ulu öndər Heydər Əliyev belə görkəmli şəxsiyyətlərdəndir. Ümummilli liderin ideyaları bu gün də yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyev dahi şəxsiyyətin yolunu, ideyalarını davam etdirərək Azərbaycanı qüdrətli dövlətə çevirmişdir".***

Naxçıvan yalnız qədim, antik mədəniyyəti ilə deyil, həm də müasirliyi ilə fərqlənir. Təsadüfi deyil ki, tarixilik və müasirliyin vəhdətində inkişaf edən Naxçıvan şəhərinə hər il on minlərlə turist gəlir. Bu səbəbdən də turistlərin istirahətinin mənalı təşkili və muxtar respublika paytaxtı ilə yaxından tanış olmaları diqqət mərkəzində saxlanılır, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir.

Mayın 2-dən Naxçıvan şəhərdaxili turist marşrutu fəaliyyətə başlayıb. "Təbriz" mehmanxanasının qarşısından hərəkətə başlayacaq turistlər 2 saat ərzində 14 kilometr məsafədə marşrut üzrə Naxçıvan şəhərinin tarixi abidələri, mədəniyyət obyektləri, görməli yerləri və müasir inkişafı ilə yaxından tanış olacaqlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə İran arasında əlaqələr xalqlarımızın mənafeyinə uyğun olaraq inkişaf və davam etdirilir. Ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan-İran əlaqələri bu gün keyfiyyətcə yeni mərhələyə yüksəlib. Son illər hər iki ölkə tərəfindən imzalanan sənədlər, əldə olunan razılıqlar, münasibətlərin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açıb. Bu gün İranın Şərqi və Qərbi Azərbaycan vilayətləri ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında mövcud iqtisadi və ticarət əlaqələri inkişaf edir.

Mayın 4-də İran İslam Respublikasının Poldəşt Gömrük terminal kompleksinin açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Ali Məclisin Sədri İran İslam Respublikasında Poldəşt Gömrükxanasının istifadəyə verilməsinin dost və qonşu ölkələrimiz arasında əlaqələrin inkişafına dəyərli töhfə olduğunu bildirib, bu münasibətlə tədbir iştirakçılarını və istifadəçiləri təbrik edərək deyib: ***"Azərbaycan və İran qonşu və qardaş dövlətlərdir. Xalqımızı əsrlər boyu formalaşmış tarixi və müştərək dəyərlər birləşdirir. Bu dəyərlərin inkişafına daim mühüm əhəmiyyət verən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan-İran əlaqələrini mehriban qonşuluq və dostluq əlaqələri səviyyəsinə qaldırmışdır. Əlaqələrimizin daha da dərinləşməsində mühüm rolu olan Şahtaxtı-Poldəşt körpüsünün açılması da ulu öndər Heydər Əliyevin 1992-ci ildə Naxçıvanın rəhbəri kimi İrana rəsmi səfəri zamanı imzalanmış əməkdaşlıq protokolunda ayrıca bənd kimi öz əksini tapmış və 1992-ci il dekabr ayının 3-də ulu öndər Heydər Əliyevin və o zaman da Qərbi Azərbaycan Vilayətinin ostandarı olan Qurbanəli Səadətin iştirakı ilə Şahtaxtı-Poldəşt körpüsünün açılışı olmuşdur. Açılış tədbirində çıxış edən ümummilli liderimiz Heydər Əliyev demişdir: "Bu keçid məntəqəsinin açılması İran-Azərbaycan əlaqələrinin genişlənməsinə xidmət edir. Mən arzu edirəm ki, daimi körpünün tikintisi də tezliklə başa çatdırılsın və beləliklə, bizim əlaqələrimiz daha da möhkəmlənsin".***

Qonşu ölkələrdən söz düşmüşkən, qardaş Türkiyə Respublikasının yaxın vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasında münasibətlər də bu gün davamlı inkişaf edir, iqtisadi-ticarət, elmi, mədəniyyət əlaqələri güclənir.

Mayın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası İqdır Vilayətinin valisi Davut Haner, Ərzurum Vilayətinin valisi Əhməd Altıbarmak və Ağrı Vilayətinin valisi Musa İşın ilə görüşüb.

Son illər muxtar respublikada peşə təhsilinin inkişafı diqqət mərkəzində saxlanılır, peşə-ixtisas təhsili müəssisələrinin maddi-texniki bazası ilbəil möhkəmləndirilir. Ordubad Texniki-Peşə və Sürücülük Məktəbi üçün yeni kompleksin istifadəyə verilməsi də muxtar respublikada bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Mayın 5-də – ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ərəfəsində Ordubad Texniki-Peşə və Sürücülük Məktəb kompleksinin açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri açılış tədbirində iştirak edib.

***"Peşə məktəblərinin inkişafı bundan sonra da diqqətdə saxlanılacaqdır. Çünki peşəsi olmayan gənc gələcəkdə heç nəyə müvəffəq ola bilməz"***, – deyən Ali Məclisin Sədri bildirib ki, bu gün Azərbaycanda, eləcə də onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında qurulanlar, yaradılanlar, mövcud inkişaf ulu öndər Heydər Əliyev siyasətinə sədaqətin və bu yolun uğurla davam etdirilməsinin nəticəsidir. Ulu öndərimizin doğum günü ərəfəsində istifadəyə verilən Ordubad Texniki-Peşə və Sürücülük Məktəbi də dahi şəxsiyyətin ideyalarının həyata keçirilməsinin daha bir nümunəsidir. Ona görə də gənclərimiz bu yol üçün çalışmalı, bu yolun davamı üçün səy göstərməlidirlər. Hər bir gənc, ilk növbədə, yaxşı oxumalı, yaxşı peşə öyrənməli, ölkəsinə, Vətəninə, millətinə sədaqətlə xidmət etməlidir. Budur Heydər Əliyev yolu.

Bu gün əhalinin başqa təbəqələri ilə müqayisədə şəhid ailələrinin sosial müdafiəyə, mənəvi dəstəyə, humanist münasibətə daha çox ehtiyacı olduğunu nəzərə alan Azərbaycan dövləti onlara xüsusi diqqət və qayğı göstərir. Bu mənada, Naxçıvan Muxtar Respublikasında ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edərək şəhidlik zirvəsinə ucalmış vətən oğullarının ailə üzvlərinin, əlil olmuş insanların, o cümlədən Böyük Vətən müharibəsi iştirakçılarının sosial-məişət qayğılarının həlli xüsusilə diqqət mərkəzində saxlanılır.

Mayın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində bu ilin aprel ayında Füzuli və Tərtər rayonlarında döyüşlərdə şəhid olan mayor Rasim Məmmədov və leytenant Qabil Orucəliyevin ailələrinə yeni mənzillər təqdim olunub.

Bu gün dünyada baş verən maliyyə böhranları və dünya bazarında neftdən tutmuş ərzağadək bütün məhsulların qiymətlərindəki qeyri-stabillik ərzaq təhlükəsizliyi məsələsini bir daha gündəmə gətirir. Sevindirici haldır ki, muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasını, sənaye və kənd təsərrüfatının bütün sahələrinin inkişafı məsələsini ön plana çıxarıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın təsdiq olunması yerli istehsal müəssisələrinin fəaliyyətinin stimullaşdırılmasına, müəssisə və təşkilatların vaxtında ərzaq məhsulları ilə keyfiyyətli və davamlı təchizatına imkan verir.

Mayın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ərzaq məhsulları ilə mərkəzləşdirilmiş qaydada təmin olunacaq dövlət müəssisə və təşkilatlarının rəhbərləri və sahibkarlarla görüşüb.

1941-1945-ci illər müharibəsində bütün Azərbaycan xalqı kimi, naxçıvanlılar da böyük şücaətlər göstəriblər. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınıb, göstərdikləri igidliklərə görə 3 həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülüb, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi, müharibə iştirakçılarından 600-ə yaxını orden və medallarla təltif olunub. Bu gün muxtar respublikada Böyük Vətən müharibəsində həlak olanların xatirəsi əziz tutulur.

Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan şəhərindəki Xatirə kompleksinə gələrək Böyük Vətən müharibəsi veteranları ilə görüşüb, onları alman faşizmi üzərində qələbənin 71-ci ildönümü münasibətilə təbrik edib.

Özünün sürətli sosial-iqtisadi inkişafı ilə diqqətləri cəlb edən, beynəlxalq tədbirlərin keçirildiyi diyara çevrilən Naxçıvan Muxtar Respublikası həm də beynəlxalq idman yarışlarının məkanı kimi şöhrət qazanıb. Doğma yurdumuz bu gün dünyanın şahmat arenasında da özünün layiqli yerini tutub, dünyada həm də beynəlxalq şahmat festivallarının ev sahibi kimi tanınıb. Artıq altıncı dəfədir, Naxçıvanda hər ilin may ayında ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilmiş beynəlxalq şahmat festivalı keçirilir. Hər il dünyanın müxtəlif ölkələrindən onlarla tanınmış şahmatçı yarışlarda iştirak etmək üçün Naxçıvana gəlir, azərbaycanlı qonaqpərvərliyinin gözəl Naxçıvan nümunəsini görürlər. Ona görə də qədim diyara gələn hər bir idmançı ikinci dəfə də bura gəlmək arzusu ilə yaşayır.

Mayın 10-da Naxçıvan Dövlət Musiqili Dram Teatrında ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Naxçıvan-2016" Beynəlxalq Şahmat Festivalının açılışı olub.

Muxtar respublikada bu gün mədəniyyətin, incəsənətin inkişafına xüsusi diqqət yetirilir, görkəmli elm, mədəniyyət, incəsənət xadimlərinin yubileyləri dövlət səviyyəsində qeyd edilir, onların adı əbədiləşdirilir. Görkəmli rəssam, istedadlı fırça ustası, Azərbaycan milli rəsm sənətinin tanınmış simalarından biri Bəhruz Kəngərlinin irsinin öyrənilməsi, yaşadılması istiqamətində də tədbirlər görülüb. Mayın 25-də Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı istifadəyə verilib, görkəmli rəssamın abidəsi ucaldılıb. Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iştirak edib.

Qədim Naxçıvan zəngin mədəniyyəti, çoxəsrlik tarixi ilə yanaşı, bu torpaqda yetişən nemətləri ilə də dünyada tanınır. Hələ orta əsrlərdə səyyahlar Naxçıvanı "meyvə cənnəti" adlandırıblar. Naxçıvanda hər mövsümün öz meyvəsi vardır. Bu meyvələr içərisində öz dad-tamı ilə seçilən, yalnız Naxçıvanda bitən bir meyvə də vardır ki, o da göycədir. Naxçıvanlı bağbanların, xalq seleksiyaçılarının əməyinin bəhrəsi olan Naxçıvan göycəsinin tarixi 7-ci əsrə gedib çıxır. Bu gün Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında göycənin müxtəlif növləri yetişdirilir. Mayın 27-də Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksində keçirilən Göycə festivalında bu barədə danışılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Göycə festivalında iştirak edib.

Hər bir xalqın ən qiymətli sərvəti onun sahib olduğu dövlət müstəqilliyidir. Azərbaycan xalqı XX əsrdə iki dəfə müstəqillik əldə edib. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Şərqdə ilk dəfə demokratik dövlət quruluşunun əsası qoyulub. Cəmi 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın böyük dövlətçilik ənənələrinə malik olduğunu bütün dünyaya nümayiş etdirib. Ulu öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərdiyi zaman qəbul etdiyi tarixi qərarlar həqiqi dövlət müstəqilliyinin bünövrəsini yaratmaqla bərabər, həm də müasir, demokratik, dünyəvi dövlətimizin Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan edib. Dahi şəxsiyyətin rəhbərliyi ilə Naxçıvanda müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunub, bununla da, Naxçıvan Muxtar Respublikası xalqımızın suveren hüquqlarının və dövlət müstəqilliyinin bərpa edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilib.

Mayın 28-də Naxçıvan şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 98-ci ildönümü – 28 May Respublika Günü münasibətilə gənclərin yürüşü keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 28 May – Respublika Günü münasibətilə keçirilən tədbirdə iştirak edib.

Bir sıra beynəlxalq ekspertlərin fikrincə, regionda cərəyan edən proseslər fonunda bu gün Naxçıvan Muxtar Respublikasının strateji əhəmiyyəti daha da artıb. Muxtar respublikada əldə edilən iqtisadi nailiyyətlər, tətbiq edilən yeniliklər, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, elmə, təhsilə, mədəniyyətin inkişafına göstərilən xüsusi diqqət və qayğı, aparılan genişmiqyaslı quruculuq işləri, islahatlar, müasir dövrün tələblərinə həmahəng olan məqsədyönlü işlər istər ayrı-ayrı fərdlərin, istərsə də ölkələrin diqqətini cəlb edir, böyük əks-səda yaradır. Bu baxımdan muxtar respublika ilə iqtisadi, mədəni, elmi əlaqələrin inkişafına maraq göstərən, inkişafın Naxçıvan modeli ilə yaxından tanış olmaq istəyən xarici ölkə diplomatlarının sayı durmadan artır. Ötən ay qədim diyara səfərə gələn çoxsaylı xarici ölkə diplomatları da məhz bu məsələləri gündəmə gətiriblər.

Mayın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-Qyu ilə, mayın 9-da İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Filip Ştalderlə, mayın 13-də Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi və Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İsakzai ilə, mayın 18-də isə Avstriya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Aksel Vexlə görüşüb. Görüşlərdə qarşılıqlı, faydalı əlaqələrin inkişafının əhəmiyyəti vurğulanıb, münasibətlərin gələcəkdə daha da inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə müzakirələr aparılıb.

*Göründüyü kimi, regional informasiya mərkəzinə çevrilən muxtar respublikada ötən ay da çox əhəmiyyətli hadisələrlə yadda qalıb. Muxtar respublika bir neçə dəfə nəinki respublika, hətta dünya ictimaiyyətini də maraqlandıran beynəlxalq idman tədbirlərinə ev sahibliyi edib. Qlobal, planetar xarakterli amillərin həyatın, demək olar ki, bütün sahələrində – iqtisadi, sosial, siyasi, humanitar-mədəni və sair sahələrdə gedən proseslərə nüfuz etdiyi bir dövrdə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər qədim diyarın gələcək inkişafı üçün də möhtəşəm zəmin hazırlayır. Bu gün görülən hər bir işin uzunmüddətli strateji inkişafın tərkib hissəsi olması, elmi əsaslara söykənməsi önümüzdəki illərdə daha böyük uğurlar əldə etməyə şərait yaradır.*

**Rauf ƏLİYEV**

## Kənd turizmi ilə bağlı növbəti maarifləndirici tədbir

İyunun 10-da Ordubad rayonunun Çənnəb kəndində rayonun ətraf Düylün, Üstüpü və Məzrə kəndləri ictimaiyyətinin iştirakı ilə kənd turizminin inkişafı mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən Ordubad Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Əliyev kənd turizminin mahiyyətindən danışaraq keçirilən tədbirin əhəmiyyətini qeyd edib.

"Çənnəb, Üstüpü və Düylün kəndlərinin turizm potensialı" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının Turizm şöbəsinin müdiri Piri Nağıyev muxtar respublikamızın kənd yaşıl turizmi potensialının istifadə imkanları haqqında danışıb. Bildirilib ki, öz füsunkar təbiəti, qədim adət-ənənələri və tarixi-mədəni zənginlikləri ilə Ordubad kəndlərinin bu baxımdan böyük potensialı vardır. Çənnəbdə yaradılmış müasir infrastruktur, bu kəndlərdə əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, istehsal olunan yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları, yeni tikilmiş villatipli evlər kənd turizminin inkişafı üçün əlverişli imkanlar yaradır. Vurğulanıb ki, kənddə istirahət etmək istəyən turistlər üçün minimum şərait yaradılması ilə turizm mövsümü ərzində yaxşı gəlirlər əldə etmək mümkündür. Bu həm ailə büdcəsi gəlirlərinin artması, eyni zamanda muxtar respublikamızın tanıdılması baxımından əhəmiyyət kəsb edir.

"Kənd yaşıl turizmi və bu sahədə gəlirlərin formalaşdırılması" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının Turizm şöbəsinin baş məsləhətçisi Əkbər Novruzov turizm ehtiyatlarından istifadə etməklə gəlirlərin formalaşdırılması məsələlərindən danışıb. Bildirilib ki, əhalinin bu sahədə maarifləndirilməsi gələcəkdə istirahətini kənddə keçirmək istəyən turistlərin sayının artmasına imkan yaradacaq. Bunun üçün turistlərə təklif olunan evlərin, digər əlavə xidmətlərin reklamını təşkil etmək, sosial şəbəkələrin gücündən faydalanmaq lazımdır.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Gülnarə Sadiqova mərkəzin kənd yaşıl turizmin təbliğindəki rolundan danışaraq bildirib ki, Ordubad rayonu kəndlərinin turizm potensialının tanıdılması üçün mərkəzdə geniş informasiya ehtiyatları vardır.

Sonra kənd sakinlərini maraqlandıran suallar cavablandırılıb.

**Əli CABBAROV**

## Gəmiqaya mədəniyyəti: tədqiqi və vəzifələr

*AMEA Naxçıvan Bölməsində bu mövzuda keçirilən elmi konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Gəmiqaya qayaüstü rəsmləri qədim Naxçıvanın Tunc və İlk Dəmir dövrü əhalisinin bədii təfəkkürünü, estetik baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli tarixi mənbələrdir. Ona görə ki, qədim Naxçıvanda o dövrdə mənəvi mədəniyyətin müxtəlif sahələri ilə yanaşı, incəsənət və piktoqrafik yazı mədəniyyəti də inkişaf edib. Bu baxımdan Gəmiqaya petroqlifləri, qayaüstü təsvirləri və piktoqrafik yazı nümunələri qədim Naxçıvanın mədəniyyət tarixini öyrənmək üçün çox dəyərli qaynaqlardır.*



Qeyd olunub ki, Gəmiqaya-Qaranquş yaylağı Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri, sonralar isə Araz sahilində, eləcə də Naxçıvançay, Əlincəçay, Gilançay vadilərində yaşamış tayfaların yaylaq yerləri olub. Elə həmin dövrlərdən buradakı qayalar üzərində insan və müxtəlif heyvan (keçi, maral, öküz, quş və sair) rəsmləri, yay-oxla keçi ovlanması səhnəsi, ayrı-ayrı işarələr və sair təsvirlər həkk edilib. Gəmiqaya təsvirlərinin və oradakı qədim yurd yerlərinin azı 5-6 min il yaşı var. Tədqiqatlar nəticəsində orada yaşamış əhalinin həyat tərzini və mədəni inkişaf yollarını izləmək mümkündür. Gəmiqaya təsvirləri 1968-ci ildən öyrənilir. Tədqiqatlar nəticəsində Naxçıvanın qədim memarlığı üçün səciyyəvi olan dairəvi planlı yurd yerləri (tikililərin divarlarının diametri 5-12 metr olub, iri və orta həcmli qaya parçalarından qurulub) və qayaüstü təsvirlər (həmin yurd yerlərinin ətrafındakı qayalar üzərindədir) aşkara çıxarılıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 26 aprel tarixli "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncamında bu barədə deyilir: "Xalqımızın tarixi, etnoqrafiyası və arxeologiyası üçün çox ciddi əhəmiyyətə malik olan Gəmiqaya qayaüstü təsvirləri Kiçik Qafqaz dağlarının dəniz səviyyəsindən 3000-3500 metr yüksəkliyində yerləşən Qaranquş, Camışölən və Nəbi yurdu yaylaqlarında qeydə alınmışdır. Süjet, kompozisiya mürəkkəbliyi ilə fərqlənən bu rəsmlərin mövzusu əcdadlarımızın inancına və əmək fəaliyyətinə, ovçu, maldar və əkinçi tayfaların təsərrüfat həyatına həsr olunmuşdur. Gəmiqaya qayaüstü təsvirləri içərisində bayram mərasimlərini əks etdirən rəsmlərlə yanaşı, müxtəlif astronomik, coğrafi təsvirli rəsmlər də vardır.

Xalqımızın həyat tərzi, qədim adət-ənənələri ilə əlaqədar yaranmış Gəmiqaya rəsmləri qiymətli tarix və təsviri sənət nümunələri kimi tariximizin və mədəniyyətimizin ilkin inkişaf mərhələlərini xronoloji ardıcıllıqla izləməyə və öyrənməyə imkan verir".

Konfransda AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Professor Əjdər Fərzəli və Gəmiqaya mədəniyyətinin tədqiqi", institutun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Firudin Rzayev "Gəmiqaya yazı işarələrinin əski Azərbaycan-türk əlifba sistemində təkrarı", Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Gəmiqaya təsvirlərinin semantik məzmunu", Naxçıvan Dövlət Universitetinin müəllimi, coğrafiya üzrə fəlsəfə doktoru, dosent Nazim Babayeli "Gəmiqaya abidələrinin coğrafiya və geologiyası", AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Əkrəm Hüseynzadə "Naxçıvan folklorunda Gəmiqaya əfsanəsi", Naxçıvan Müəllimlər İnstitutunun müəllimi Nizami Alıyev "Gəmiqayada aşağı bölgə rəsmləri və Nuhun gəmisi" mövzularında məruzələr ediblər.

Konfransda musiqişünas Kənan Məmmədlinin "Gəmiqayadan qaynaqlanan folklorumuzda yallı adları", Elmin İnkişafına Dəstək İctimai Birliyinin İdarə Heyətinin sədri Mirələkbər Seyidovun "Gəmiqaya ilə bağlı bir çox istiqamətdə görülən işlər barədə" mövzularında çıxışları olub.

**Nərgiz İSMAYILOVA**

## Tanınmış xanəndə, Beynəlxalq Muğam Festivalının qalibi Naxçıvanda ustad dərsi keçib





Muxtar respublikamızda müxtəlif yaradıcılıq sahələri üzrə təhsil alan tələbə və şagirdlərə ustad dərslərinin keçilməsi ənənə şəklini alıb. Ustad dərslərinə naxçıvanlı təcrübəli sənətkarlarla yanaşı, paytaxt Bakı şəhərindən də sənət adamları dəvət olunurlar.

Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə həyata keçirilən "Muğam aləmi" Beynəlxalq Muğam Festivalının qalibi Eytiram Hüseynov ustad dərsi keçmək üçün yenidən Naxçıvana gəlib. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin xanəndəlik sinfində təhsil alan şagirdlər, Musiqi Kollecinin tələbələri üçün nəzərdə tutulmuş ustad dərsi Naxçıvan Dövlət Filarmoniyasının zalında keçilib. Yusif Hacıyev, Tayfun Abdullayev, Rəna Mehrəliyeva, Səfər Cəfərov, Məhərrəm Süleymanov, Ələkbər Sadiqov Naxçıvan Dövlət Filarmoniyasının muğam üçlüyünün müşayiəti altında müxtəlif muğam və təsniflər səsləndiriblər.

Dərs müddətində Eytiram Hüseyinov şagirdlərə irad və təkliflərini, ifalarındakı qüsurları bildirib, onlara dəyərli məsləhətlər verib.

Dərsin sonunda Eytiram Hüseyinov belə dərsin təşkilində əməyi olanlara minnətdarlığını bildirib.

**Fatma BABAYEVA**

## Muğam məclisi təşkil olunub

*Naxçıvan Dövlət Filarmoniyasında muğam məclisi olub. Məclis başlamazdan əvvəl aparıcı bildirib ki, muğam sənəti Azərbaycan xalqının bədii yaradıcılığının və musiqi mədəniyyətinin zəngin sərvəti olmaqla nadir sənət nümunəsidir.*

Qeyd olunub ki, son dövrlərdə Azərbaycan muğam sənəti xalqımızın milli sərvəti kimi bütün dünyada geniş təbliğ olunur və şöhrət qazanır. Təsadüfi deyil ki, 2008-ci ildə Azərbaycan muğamları YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Vurğulanıb ki, muxtar respublikamızda da muğam sənətinin yaşadılması, təbliği istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamına əsasən keçirilən xalq yaradıcılığı günlərində zəngin folklor nümunələri ilə yanaşı, muğamlarımız da gənc nəslə aşılanır. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin



yeni layihəsi olan muğam dəsgahlarının silsilə olaraq tamaşaçılara təqdim olunması da bu istiqamətdə görülən işlərin davamıdır.

Tədbirin bədii hissəsində xanəndə və müğənnilərdən Azərbaycan Respublikasının Əməkdar artisti Qurban Qasımov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudov, müğənnilərdən Qəribə Həsənova, Nərmin Hüseynova "Bayatı-Şiraz"ın müxtəlif şöbə və guşələrini səsləndiriblər.

Muğam ifaçılarını tarda Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev, kamançada Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Aqib Seyidov, balabanda Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Qasım Bağırov, nağarada Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Məmmədəli Babayev, qanunda Sevinc Babayeva, udda Sərxan Abdullayev, dəm balabanda Nihat Quliyev müşayiət ediblər.

**Əli RZAYEV**

## Hüseyn Cavid yaradıcılığında ümumbəşəri problemlər

Hüseyn Cavidin ev-muzeyində "Hüseyn Cavid yaradıcılığında ümumbəşəri problemlər" mövzusunda dəyirmi masa keçirilib. Tədbiri giriş sözü ilə muzeyin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov açaraq bildirib ki, zaman keçdikcə Cavid irsinə maraq daha da artır, böyük şair-dramaturqun irsinin öyrənilməsi aktuallıq qazanır. Azərbaycan ədəbiyyatında romantizm cərəyanının qüdrətli nümayəndələrindən və əsas yaradıcılarından olan Hüseyn Cavid öz əsərlərində ümumbəşəri problemlərə toxunurdu. Böyük sənətkarı həyat və insan, xeyir və şər, məhəbbət və nifrət kimi ümumbəşəri məsələlər daim düşündürürdü. Cavid hər zaman insan qüdrətinin ən ülvi duyğularını tərənnüm edirdi. Hüseyn Cavidin əsərləri həm də şəxsiyyətlərin həyatını romantik fəlsəfi mövqedən dərk etmək baxımından kamil sənət nümunəsidir.

Dəyirmi masada filologiya elmləri doktoru, professor Hüseyn Həşimli, yazıçı-publisist Əbülfəz Əsgərli, filologiya üzrə fəlsəfə doktorları Əbülfəz Əzimli, Əli Həşimli, Mehriban Quliyeva, pedaqogika üzrə fəlsəfə doktoru Kamal Camalov, Xalq artistləri Kamran Quliyev, Həsən Ağasoy, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Həsən Kərimov, nazirliyin əməkdaşı Əli Rzayev, muzeyin əməkdaşı Naibə Mirzəyeva, müəllim və ziyalılardan Əbülfəz Rəşidoğlu, Qanun Məmmədov, Südabə Süleymanova və Səyyar Məmmədov çıxış edərək böyük sənətkarın bütün əsərlərində insanlığı narahat edən məsələlərə cavab axtarmasını xüsusi qeyd ediblər. Bildirilib ki, ideal və varlıq, qəhrəman şəxsiyyətlər və onların faciəsi, ziddiyyətli xarakterlər dünyası, eşq və ülviyyət, müdriklik və kamillik kimi mövzular Cavid yaradıcılığında daim aparıcı xətt olub.

Çıxışlarda ulu öndər Heydər Əliyevin Cavid şəxsiyyətinə, irsinə, ailəsinə göstərdiyi qayğıdan geniş söhbət açılıb, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi üçün dövlət səviyyəsində görülən böyük işlər qeyd edilib.

Tədbir iştirakçıları sonda muzeyin ekspozisiyası ilə tanış olublar.

## Şahmat üzrə açıq birincilik

*Naxçıvan şəhərindəki Şahmat Mərkəzində 15 İyun – Milli Qurtuluş Günü münasibətilə adıçəkilən mərkəzin açıq birinciliyi keçirilir.*

Birinciliyi giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini, Naxçıvan Şahmat Mərkəzinin direktoru, beynəlxalq dərəcəli hakim Emin Hacıyev açaraq iştirakçıları təbrik edib, onlara müvəffəqiyyətlər arzulayıb.

Sonra birinciliyə start verilib. İlk turda növbəti mərhələyə keçmək üçün müxtəlif yaşlarda 118 şahmatçı qələbə uğrunda mübarizə aparıb.

Məlumat üçün bildirək ki, birincilik iyunun 15-də yekunlaşacaq.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Naxçıvan şəhəri, "Əlincə" məhəlləsi, bina $3^D$, mənzil 23 ünvanında Məmmədova Rəşidə Hamlet qızının adına olan 5815 inventar nömrəli texniki pasport və MH 0034676 seriya nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 459